# «Dəyirmi masa»

Yeni Azərbaycan Partiyası Qəbələ Telekommunikasiya Qovşağı ilk təşkilatında ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar «Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur» mövzusunda «dəyirmi masa» keçirilmişdir.



Tədbiri Qəbələ TKQ-nın rəisi Şahin Tağıyev açaraq ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışıb.

Sonra tədbirdə iştirak edən YAP rayon təşkilatının sədr müavini, partiya aparatının rəhbəri Elçin Tağıyev ulu öndər Heydər Əliyevin keçdiyi çətin və şərəfli həyat yolu haqqında məlumat vermişdir.

Natiq «dəyirmi masa» iştirakçılarının diqqətinə çatdırb ki, ikinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn və ölkəni parçalanmaqdan xilas edən ulu öndər Heydər Əliyev bütün sahələrdə islahatlar keçirərək və möhtəşəm layihələrə imza ataraq, müstəqil dövlətimizin sosial-iqtisadi inkişafına bir daha təkan verdi. Azərbaycan inkişaf etmiş ölkələr sırasına daxil oldu. İndi bu siyasət ölkə başçısı İlham Əliyev tərəfindən davamlı olaraq uğurla həyata keçirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olunmuş telekommunikasiya qovşağının 6 nəfər işçisinə üzvlük vəsiqələri təqdim edildi.

**Şöhrət SÜLEYMANOV.**

**Foto Səhrab Umuyevindir.**

# Yubiley münasibətilə

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlanmışdır. Şagirdlər arasında yubileyə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan" mövzusunda inşa, rəsm müsaqibəsi, bilik və idman yarışları, bədii qiraət gecəsi keçirilir. «Heydər Əliyev Azərbaycanın xilaskarıdır» mövzusunda «dəyirmi masa» arxasında söhbət, müxtəlif silsilə tədbirlərin keçirilməsi davam edir. Bu tədbirlərin ən önəmlisi yubiley ilində Mərkəzin müəllim və şagirdlərindən bir qrupunun Yeni Azərbaycan Partiyası sıralarına qəbul mərasimi oldu.

Tədris Mərkəzinin mühəndis-pedaqoji kollektivinin, eyni zamanda təhsil alan şagirdlərinin 15 nəfəri YAP Qəbələ rayon təşkilatına qəbul üçün müraciət etmişdi. 12 aprel 2013-cü il tarixdə həmin şəxslərə YAP-nın üzvlük vəsiqələri təqdim olunmuşdur. Tədbiri giriş sözü ilə Tədris Mərkəzinin tədris istehsalat işləri üzrə direktor müavini Reyhan Məmmədova açdı. O, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan YAP-nın böyük nüfuza malik olduğunu qeyd etdi. Mərasimdə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov və YAP-ın Qəbələ rayon təşkilatının sədr müavini Elçin Tağıyev kollektiv qarşısında partiyanın yaranma tarixindən danışmış, partiya sıralarına qəbul olunan gəncləri təbrik etmişlər. Partiya sıralarına qəbul olan gənclər adından H. Cabbarov çıxış edərək bildirmişdir ki, onlar daim ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşəcək, Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edəcəklər. Partiya sıralarına yeni daxil olan gənclər üçün bir də o, sevindirici haldır ki, onların əksəriyyəti ilk dəfə bu il Prezident seçkilərində iştirak edəcəklər.

**Xəyal MAHMUDOV,**
**tədris mərkəzinin ixtisas fənn müəllimi.**

# Ən böyük yaxşılıq

**(Əvvəli 4-cü səhifədə).**

—Məni sovet hökuməti güllələsə də, mən o uşağın ağzının ruzisini aparmayacağam, Səfər,—deyə icraçı beşiyə yaxınlaşdı. Cibindən qar kimi ağappaq yaylığını çıxararaq körpənin yaşa bələnmiş gözlərini sildi və aşağı əyilərək onun hər iki gözündən öpdü.

Qəribə də olsa sovet sədri inəyin yanından aralanan kimi körpə səsini dərhal kəsdi. Sonra onu öpən mehriban baxışlı, yad adamın üzünə qımışaraq gülümsədi.

Həyətdəkilər baş verənlərdən təsirlənmişdilər. Hamı ürəyində Səfərin yeddi arxadöneninə lənətlər yağdırırdı.

* * *

...Bu əhvalat çoxdan olmuşdu. Hadisəni isə mənə anam danışmışdı. Tanımadığım məhkəmə məmurunun alicənablığı məndə bu insana qarşı böyük hörmət və ehtiram hissi yaratmışdı. Bu yaxşı adamla rastlaşmaq, etdiyi xeyirxahlığa görə ona minnətdarlığımı bildirmək və onun əllərini sıxmaq istəyi qəlbimdə həmişəlik yuva salmışdı. Lakin aradan çox vaxt keçdiyini düşünərək artıq bu xeyirxah insanın həyatda olmadığını zənn edir, Allahdan ona rəhmət diləyirdim.

* * *

Xidməti işimlə əlaqədar bir müddət digər bölgələrdə çalışdıqdan sonra doğma rayonumuza işləməyə göndərilmişdim. İş yerimin qarşısında yaraşıqlı, izdihamlı və geniş bir park vardı. Hərdən yorğunluğumu çıxarmaq məqsədi ilə ikinci mərtəbədə yerləşən otağımın pəncərəsi qarşısına keçər, oradakı fəvvarələri seyr edərdim. Diqqətimi hər gün parkı tənha dolaşan, hündür boylu , ağ saçlı, qayğılı baxışları olan bir qoca cəlb edərdi. Nədənsə o həmişə bura tək gəlib-gedər, parkın daimi sakinləri olan ağsaqqallara o qədər də qoşulmazdı. Bizim binanın yanından keçəndə rastlaşdığı əməkdaşlarla təbəssümlə salamlaşar, asta addımlarla yoluna davam edərdi. Əyninə daim geydiyi solğun, lakin tər-təmiz uniformadan maddi durumunun o qədər də yaxşı olmadığı hiss olunurdu. Hərəkətləri və yerişi adama kübarlıq, ziyalılıq təəssüratı bağışlayırdı.

Adi iş günlərinin birində növbətçi bir vətəndaşın mənimlə görüşmək istədiyini bildirdi. Qəbul günüm olmasa da onu içəri buraxmasını tapşırdım. Az keçdikdən sonra qapım astaca döyüldü.

—Gəlin—dedim.

Qapı açılarkən qarşımda həmin qocanın nurlu simasını gördüm. Ayağa duraraq onu qarşılamaq üçün qabağına getdim. Stul çəkib əyləşməsini təklif etdim.

—Çox sağ olun—deyə, oturaraq yerini rahatladı.

Köhnə tanışlar kimi əhvalını soruşdum:

—Nə var, nə yox, necəsiniz?

Razılıq edərək mətləbə keçdi:

—Oğlum,—dedi—mən ömrüm boyu dövlət qulluğunda çalışmışam...

—Nəçisiniz? Nə işlə məşğul olmusunuz?

—Məhkəmədə icra məmuru işləmişəm.

—Nə danışırsınız, hansı rayonda?

—Elə bu rayonda.

—Neçənci illərdə?

—Altmışıncı ildən, ta təqaüdə çıxana kimi.

Maraqla onu süzdüm. Deyəsən mənim göz yaşlarımı o vaxt silən adam elə həmin bu qocanın özü idi. Onunla rastlaşdığıma görə məmnunluğumu çalışırdım ki, hiss etdirməyəm. Lakin o, təcrübəli və dünyagörmüş adam olduğundan üzümdəki ifadəni tutmuşdu və keçirdiyim fərəh hissinin səbəbini özlüyündə varavürd edirdi. Qocanın boynuna sarılmaqdan özümü güclə saxlayaraq, səbirsizliklə gəlişinin səbəbini öyrənmək istədim:

—Buyurun, buyurun, Sizi dinləyirəm!

—Oğul, sözümün canı budur ki, son vaxtlar səhhətimdə yaranan qüsurlara görə təqaüdümün çox hissəsini müalicəmə, dava-dərmana xərcləyirəm. Ona görə maddi durumumda bir balaca çətinlik əmələ gəlib. Yoxsa Sizi də narahat etməz istəməzdim... Lakin Sizdən əvvəl neçə adama ağız açsam da, hamısı məni naümid yola saldı. Qış qapını kəsib, mən isə hələ odun tədarük edə bilməmişəm. Bir oğlum var, Rusiyada yaşayır, neçə illərdir xəbər-ətəri yoxdur. Arvadım da keçən il rəhmətə gedib, tək qalmışam. Çox xahiş edirəm, oğul, mümkündürsə məni əliboş yola salmayın, tapşırın mənə bir az odun versinlər.

Qoca xəcalətdən sıxıla-sıxıla danışırdı. Ələbaxım adama oxşamadığına görə etdiyi xahişin onun qürurunu sındırdığı sezilirdi.

Bu adamla rastlaşdığıma, onu tapdığıma nə qədər sevinmişdimsə, onun mükəddər həyatına də o qədər acıdım.

—Ünvanınızı deyin.

—Cəlil Məmmədquluzadə küçəsi 172, Həmid Rəsulov.

—Narahat olmayın, Həmid dayı, göndərərik—dedim.

—Təşəkkür edirəm, oğul.

Həmid kişini yola salandan sonra sürücüyə pul verərək meşə təsərrüfatı idarəsinin hesabına bir maşın odunun pulunu keçirməsini tapşırdım. İdarənin rəisinə də zəng edərək ona odun göndərməsini xahiş etdim.

İki gündən sonra növbətçi Həmid kişinin yenidən mənimlə görüşmək istədiyini bildirdi.

—Buraxın gəlsin—dedim.

Əvvəlki nəzakətlə qapı döyüldü. Cəld duraraq qapını özüm açdım.

—Buyurun, Həmid dayı, gəlin içəri.

—Çox sağ olun, ay oğul, gəlmişəm ki, göndərdiyiniz oduna görə Sizə minnətdarlığımı bildirim.

—Zəhmət çəkmisiniz, telefonla da zəng edə bilərdiniz...

—Yox, ay bala, hərənin adamlığı, ləyaqəti var, mən gəlmişəm ki, etdiyiniz yaxşılıq üçün əllərinizi sıxım.

—Nə danışırsınız, Həmid dayı, əslində ən böyük yaxşılığı Siz etmisiniz. Özü də otuz beş il bundan qabaq.

Müsahibim çaşdı.

—Necəə? Mən etmişəm? Harada? Vallah dediyinizdən heç nə başa düşmürəm.

—Həmid dayı, otuz beş il bundan qabaq Bağbanlar kəndində Azər Bəkirzadənin kolxoz sədrinin göstərişi ilə dolaşdırılıb həbs edilməsini xatırlayırsınızmı?

Həmid kişi yaddaşını vərəqləyir kimi gözlərini qıyaraq o illəri xatırlamaqdan ötrü bir qədər xəyala daldı. Xeyli fikirləşəndən sonra sanki gözləri işıqlandı.

—Bəli, əlbəttə—dedi—əmlakı da müsadirə olunmuşdu.

—Müsadirəni də Siz icra etmişdiniz.

Kişi tutulan kimi oldu.

—Elədir, o vaxt kənd sovetinin sədri işləyən Səfərlə birlikdə mən icra etmişdim.

—Həmid dayı, hər şeyi arabaya yükləyəndən sonra həyətdəki inəyi də açıb aparmaq istəmisiniz. Lakin inəyi dirəkdən açarkən həyətdəki beşikdə yatan körpə ağlamağa başladığından Siz inəyi sovet sədrinə açmağa qoymamısınız. Demisiniz ki, hökumət məni güllələsə də mən o beşikdə ağlayan körpənin ruzisini əlindən alıb aparmayacağam. Düzdürmü?

Həmid kişi heyrətlə:

—Düzdür! Lakin soruşmaq eyib olmasın, ay oğul, bütün bunları Siz haradan bilirsiniz?

—Həmid dayı,—dedim—bax, onda həmin beşikdə yatan o körpə mən olmuşam! İndi deyin, hansı yaxşılıq daha böyükdür?!..

İxtiyar qocanın mütəəssir gözləri doldu...

**Anar RÜSTƏMLİ.**